# Nizami Rəhmanlı - 70



Hörmətli Nizami Rəhmanlı!

Sizi - tanınmış publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1952-ci il may ayının 5-də Dəvəçi (hazırda Şabran) rayonunun Orta Əmirxanlı kəndində ziyalı ailəsində həyata göz açmısınız. Orta təhsilinizi Dəvəçi şəhər Tofiq Abbasov adına 1 saylı məktəbdə almısınız. 1973-cü ildə Azərbaycan Dövlət Universitetini (BDU) bitirib, təyinatla Azərbaycan Həmkarlar İttifaqı Şurası sisteminə işləməyə göndərilmisiniz.

Hələ orta məktəbdə oxuyarkən Sizin bir sıra məqalələriniz, şeirləriniz, təmsil və miniatürləriniz "Qurucu" rayon qəzetində, "Azərbaycan pioneri", "İdman" qəzetlərində, "Təşviqatçı" jurnalında dərc edilmişdir. Tələbəlik illərində Universitetin "Lenin tərbiyəsi uğrunda", "Azərbaycan gəncləri" qəzetləri ilə sıx əməkdaşlıq etmisiniz.

1976-cı il fevralın 26-dan Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində əmək fəaliyyətinə başlamısınız. 4 il bu qurumun Azad Komsomol Təşkilat katibi vəzifəsində çalışmısınız. On beş ildən artıq burada işlədiyiniz müddətdə istər radioda, istərsə də televiziyada hazırladığınız verilişlər həmişə diqqəti cəlb edib.

1980-ci ildən Respublika Jurnalistlər, 2002-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz.

Sonra Siz "Həyat", "Azərbaycan", "Respublika", "Panorama" qəzetlərində çalışaraq yüzlərlə yazıya imza atmısınız. Qələmə aldığınız publisistik əsərlər geniş oxucu kütləsində yetərincə maraq doğurub. Sizin yaradıcılığınızda Rusiya Federasiyası və Ukrayna Respublikasında çalışan soydanlarımız barəsində maraqlı, oxunaqlı oçerkləriniz daha çox yadda qalır. Uzun illər Rusiyada və Ukraynada məskunlaşmış, yaşadıqları ölkələrin iqtisadi, elmi, mədəni, ictimai-siyasi həyatında yüksək uğurlar qazanan, xalqımızı bu məmləkətlərdə ləyaqətlə təmsil edən, ölkələrimiz arasında dostluq, əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirən yurddaşlarımızı Azərbaycanda daha yaxından tanıtmaqla mühüm, xeyirxah işlər görmüsünüz. Sizin bu günə qədər "Bir budağın yarpaqları", "Tanınanlar və tanıdanlar", "Bu şəhərdə mənə doğma kimsə var", "Azərbaycan - yurdum mənim", "Çıraqqala yurdunun övladları" və s. kimi 18 kitabınız çap edilib.

Hörmətli Nizami müəllim, sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 30 aprel.- S. 32.**